Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi




İnformasiya – resurs şöbəsi




# MÜSTƏQİLLİYİMİZ DÖNMƏZDİR, ƏBƏDİDİR

**Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü ilə əlaqədar tövsiyə-ədəbiyyat siyahısı**

**Bakı-2016**

## Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 25 il keçir. Müsəlman Şərqində ilk demokratik respublika olmuş Cümhuriyyətin bayrağını, himni və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May gününün dövlət bayramı səviyyəsində qeyd edilməsi Azərbaycan Respublikasının 1918-ci ildə imzalanmış İstiqlal bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür.

Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, hər bir xalqın milli varlığının mahiyyətini təşkil edən amilləri – dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbə-yi kimi qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr ver-mişdir. Dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında sıx birlə-şərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır.

Ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, iqtisadiyyatımız inkişaf etmiş, mədəniyyətimiz zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir.

1991-ci ildən etibarən müstəqillik yollarında ilk addımlarını atarkən Azərbaycan keçirdiyi dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə üz-üzə qalmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhv olma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyuldu, dövlətlə xalqın birliyi təmin edildi. İctimai-siyasi sabitliyin bərqərar olması, hərbi əməliyyatların dayan-dırılması və "Əsrin müqaviləsi"nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatların başlanmasına zəmin yaratdı.

1995-ci ildə qəbul olunan Azərbaycan Konstitusiyası milli dövlət quruculuğunun bünövrəsini təşkil etməklə müasir dövlətin bütün qurum və təsisatlarının formalaşdırılmasın-da, hakimiyyət bölgüsü prinsiplərinin tam təşəkkül tapmasında, parlamentarizm ənənələrinin zənginləşdirilməsində mühüm rol oynamışdır. 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixli referendumlar Konstitusiyanın müəyyən maddələrinə əlavələri ilə dövlət quruculuğu sisteminin təkmilləşməsinə töhfələr vermişdir.

Bu gün müxtəlif yönümlü siyasi partiyaların, ictimai təşkilatların və çoxsaylı mətbu orqanlarının fəaliyyət göstərməsi, vicdan və söz azadlığının, vətəndaşların əsas hüquq və

azadlıqlarının təmin edilməsi, müstəqil seçki və hüquq-məhkəmə sistemlərinin qurulması ölkədə müstəqillik illərində təşəkkül tapmış demokratik ab-havanın başlıca göstəricilərindəndir. Qazanılan uğurlar müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət edərək BMT-nin bəyan etdiyi davamlı inkişaf məqsədlərinə nail olmaqda müstəsna əhəmiyyətə malikdir.

Dövlət neft strategiyasının həyata keçirilməsi ilə yanaşı bu illər ərzində ölkəmizdə müasir iqtisadiyyatın əsaslarının yaradılması, torpaq islahatlarının həyata keçirilməsi, sahib-karlığın inkişaf etdirilməsi, maliyyə-bank sisteminin qurulması, ticarətin liberallaşdırılması və əhalinin sosial müdafiəsinin təmin olunması istiqamətlərində mühüm layihələr gerçək-ləşdirilmişdir. Keçid dövrünü uğurla başa vuran ölkəmiz iqtisadiyyatının həcmini bir neçə dəfə artıraraq bu gün davamlı inkişaf prinsiplərinə sadiq, güclü infrastruktur və inkişaf potensialına malik iqtisadiyyat qurmuşdur.

Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının yüksək qiymətləndirdiyi iqtisadi duruma biz hələ də öz həllini tapmayan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır fəsadları şəraitində nail olmuşuq. Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq həmin münaqişənin sülh yolu ilə həllinə yönəlmişdir. Bütün dövlətlər və beynəlxalq qurumlar tərəfindən qəbul olunan müvafiq qərarlara baxmayaraq, hələ ki Ermənistanın qeyri-konstruktiv mövqeyi sülhə nail olmağa imkan vermir.

Ölkəmizdə ordu quruculuğunun əsasını təşkil edən prinsip və normalar Azərbaycanın həm müdafiə potensialını, həm də dost və tərəfdaş dövlətlərlə əlaqələrini gücləndirmişdir. Müdafiə sənayesinin inkişafı Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsinə zəmin yaratmış və ordunun döyüş qabiliyyətini artırmışdır. Ermənistanın təxribatçı fəaliyyəti səbəbindən 2016-cı ilin aprel ayında cəbhədə cərəyan edən hadisələrin nəticələri Qafqazda ən güclü orduya malik olduğumuzu bir daha təsdiq etdi.

Müstəqil Azərbaycan enerji sektorunun inkişafı istiqamətində mühüm irəliləyişlərə nail olmuşdur. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və digər irimiqyaslı strateji layihələr ölkəmizin enerji ehtiyatlarını dünya bazarlarına çıxarmaqla Avropanın enerji təhlükəsizliyinin təminatında böyük əhəmiyyətə malikdir. Respublikamızda neft və qeyri-neft sektorunun yüksəlişi ümumi daxili məhsulun artmasına, güclü sahibkarlar zümrəsinin və orta təbəqənin yaranmasına təkan vermişdir. Ölkə üzrə sənaye zonalarının açılması, Bakı ilə yanaşı digər şəhərlərin də sənaye potensialının artırılması, texnoparkların və aqroparkların qurulması regionların böyük sürətlə inkişafını təmin etməyə imkan yaratmışdır. Ölkəmizin ərzaq təhlükəsizliyi təmin olunmuş, kənd təsərrüfatının və müvafiq infrastrukturun inkişafına böyük investisiyalar qoyulmuş, ərzaq və qeyri-ərzaq məhsullarının ixrac qabiliyyətinin artırılması istiqamətində mühüm addımlar atılmışdır.

Post-neft dövrünə qədəm qoymuş Azərbaycan iqtisadiyyatın bütün sahələrində ciddi islahatlar aparır. Ölkənin yol-nəqliyyat şəbəkəsi əsaslı şəkildə yenidən qurulur, dəmiryol nəqliyyatı müasirləşdirilir, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri formalaşdırılır. Paytaxtla yanaşı bölgələrdə də beynəlxalq hava limanları istifadəyə verilmiş, müasir standartlara uyğun dəniz ticarət limanı fəaliyyətə başlamışdır. Yeni texnologiyalar əsasında tikilən sənaye müəssisələri metallurgiya, maşınqayırma, inşaat materiallarının istehsalı və digər sahələrin sürətli inkişafı üçün maddi-texniki baza yaradır.

Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılmışdır. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilmiş, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilmiş, yeni universitetlər açılmış, təhsildə özəl sektor formalaşmışdır. Azərbaycan mədəniyyəti həm ölkə daxilində, həm də xaricdə irimiqyaslı layihələr çərçivəsində təmsil olunmaqdadır. Tikilən yeni məktəblər, müalicə ocaqları, muzeylər, olimpiya mərkəzləri, mədəniyyət müəssisələri və istirahət zonaları sosial həyatın yaxşılaşmasına xidmət edir. "ASAN xidmət" şəbəkəsi, ünvanlı sosial yardım, aztəminatlı ailələrin əlverişli şərtlərlə mənzillə təmin olunması və digər layihələr dövlətin sosial yönümlü siyasətinin göstəricisidir.

Şəhərlərimizin və regionlarımızın infrastrukturunun yeniləşməsi geniş vüsət alır. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilərək tarixi və müasir memarlığın harmonik inkişafının parlaq nümunəsi kimi qiymətləndirilir. Yaradılan müvafiq infrastruktur, istifadəyə verilən yeni otellər və bölgələrdə həyata keçirilən möhtəşəm abadlıq-quruculuq işləri turizmin uğurlu inkişafı üçün geniş perspektivlər açır.

Müstəqillik illərində gənclərlə bağlı siyasət uğurla gerçəkləşdirilir, onların ölkənin siyasi, iqtisadi və sosial-mədəni həyatında iştirakı gündən-günə genişlənir. Ölkəmizin idman sahəsindəki böyük nailiyyətləri gənc nəslin sağlam həyat tərzinə göstərdiyi diqqətin ifadəsidir. Gənclərimizin müxtəlif çempionatlarda və olimpiya oyunlarında qazandığı medallar, Rio-de-Janeyroda nümayiş etdirdiyi yüksək göstəricilər və Azərbaycanda keçirilən İlk Avropa Oyunlarındakı müvəffəqiyyətləri idman tariximizə həkk olunmuşdur.

Nüfuzu beynəlxalq miqyasda ilbəil möhkəmlənən Azərbaycan dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur. Respublikamızda keçirilən mötəbər beynəlxalq sammit, forum, sərgi, müsabiqə və yarışlar beynəlxalq aləmdə qazandığımız böyük etimadın təzahürüdür.

Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, yaradıcı potensialına, vətənpərvərliyinə və qurub-yaratmaq əzminə arxalanaraq, 25 il ərzində suveren dövlət çərçivəsində misilsiz inkişaf yolu keçmişdir. Müstəqil dövlət quruculuğu sahəsində Azərbaycan Respublikasının əldə etdiyi bu nailiyyətlərin təbliğini, gənc nəsildə vətənpərvərlik ruhunun aşılanmasını və dünya azərbaycanlılarının öz tarixi vətənlərinə bağlılığının gücləndirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraqqərara alıram:

1. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ölkəmizdə dövlət səviyyəsində təntənəli surətdə qeyd olunsun.

2. "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın ikinci bəndində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin və Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 11 oktyabr 2016-cı il**

**“Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması, onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir”**

**Heydər Əliyev**

Azadlıq, müstəqillik həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur.

Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə və çətinliyə dözməyi bacarasan. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. 1991- ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında “Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bulleteninə bir söz yazılmışdı: “Siz Azərbaycanın dövlət müstəqilliyi haqqında Azərbaycan Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktı”na tərəfdarsınızmı?” Səsvermə hüququ onların 95%-indən çoxu referendumda iştirak etdi. Azərbaycan yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı. Müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başladı. Onun müstəqilliyini dünya dövlətləri, ilk olaraq 1991- ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və b. dövlətlər tanıdılar. Azərbaycanın BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə defakto tanınmasına başlandı. Lakin müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılar hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini reallaşdırırdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına eyni dərəcədə diqqət verilir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb. Regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir.

Bu il Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunmasının 25 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti 11 oktyabr 2016-cı il tarixli sərəncam imzalamışdır və həmin sərəncama əsasən respublikamızın bütün guşələrində və dünyanın bir sıra ölkələrində müstəqillik günü ilə əlaqədar silsilə tədbirlər keçirilir.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının İnformasiya-resurs şöbəsi də gənclər arasında Azərbaycanın dövlət müstəqilliyinə dair materialları təbliğ məqsədilə aşağıdakı tövsiyə - ədəbiyyat siyahısını tərtib edib.

## Azərbaycanın Dövlət Müstəqilliyi haqqında

## Kitablar:

1. **Aslanova, Rəbiyyət Nurullah qızı**. Müasir dövlət və dövlətşünaslıq elmi : Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü işığında / R. N. Aslanova ; elmi red. R. Ə. Mehdiyev ; rəy. Y. M. Mahmudov. - Bakı : Azərnəşr, 2011. - 440 s.

2. **Azərbaycan dövləti** bundan sonra da yaşayacaq və müstəqilliyimiz əbədi, daimi olacaqdır = Азербайджанское государство будет жить и впредь, наша независимость станет. постоянной, вечной. - Bakı : Azərbaycan nəşriyyatı, 2001. - 107 s.

3. **Azərbaycanın Dövlət** müstəqilliyinin 10 illiyinə həsr olunmuş "Suverenlik, demokratiya, dövlət idarəçiliyi" mövzusunda elmi sessiyanın materialları : 10 oktyabr 2001-ci il / red. S. M. Qəndilov. - Bakı : [n. y.], 2002. - 163 s.

4. **Dadaşov, Aydın Ərşad oğlu.** Müstəqillik dövrünün dramaturgiyası / A. Ə. Dadaşov ; elmi red. Z. Əsgərli ; AMEA Nizami adına Ədəbiyyat İnstitutu. - Bakı : Nağıl evi, 2005. - 216 s.

5. **Daşdəmirov, Əfrand Firudin oğlu**. Millət və cəmiyyət tarixin sərt dönəmlərində / Ə. F. Daşdəmirov ; elmi red. C. B. Quliyev ; AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. - Bakı : Elm, 2008. - 344 s.

6. **Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz** əbədidir : çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar / H. Ə. Əliyev ; bur. məsul R. Ə. Mehdiyev.
**16-cı kitab** : iyun 1998 - iyul 1998. - Bakı : Azərnəşr, 2005. - 552 s.

7. **"Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir" çoxcildliyin elmi-biblioqrafik göstəricisi : 2 cilddə. II cild / AMEA Mərkəzi Elmi Kitabxana ; tərt.-müəl. A. İ. Əliyeva-Kəngərli, layihənin rəh. A. A. Əlizadə, elmi red. İ. Ə. Həbibbəyli.- Bakı : Şərq-Qərb, 2013. - 752 s.

8. **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir : çoxcildliyin XXIX - XXXXII cildlərinin köməkçi göstəricisi / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası ; layihənin rəh. Ə. Qarayev ; red. G. C. Səfərəliyeva ; bur. məsul K. M. Tahirov. - Bakı : Zərdabi LTD MMC NPM, 2013. - 448 s.

9. **Heydər Əliyev və Müstəqil** Azərbaycan Gəncliyi / tərt.: Z. N. Adıgözəlov, İ. Ə. Mustafayev ; red. M. Q. Qurbanlı. - Bakı : QAPP-POLİQRAF Korporasiyası, 2003. – 368 s.

10. **Hüseynov, Şirməmməd Ağaməmməd oğlu**. Müstəqilliyin çətin yolu... : reallıqlar, düşüncələr / Ş. A. Hüseynov ; red. Ü. Hüseynova. - II nəşri, əlavələrlə. - Bakı : Elm, 2009. - 540 s.

11. **Hüseynov, Şirməmməd Ağaməmməd oğlu**. Müstəqilliyin çətin yolu... : reallıqlar, düşüncələr / Ş. A. Hüseynov ; red. Ü. Hüseynova. - II nəşri, əlavələrlə. - Bakı : Elm, 2009. - 540 s.

12. **Hüseynova, Leyla Əhliman qızı.** Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri : müstəqillik dövrü: monoqrafiya / L. Ə. Hüseynova ; elmi red. Y. Mahmudov ; red. V. Musayev ; AMEA A. Bakıxanov adına Tarix İnstitutu. - Bakı : Təhsil, 2011. - 216 s.

13. **Quliyeva, Nərgiz Məlik qızı.** Müstəqillik illəri Azərbaycan ailəsi / N. M. Quliyeva ; elmi red. A. Ə. Məmmədov ; AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. - Bakı : Elm, 2006. - 93 s.

14. **Mamulia, Giorgi.** Odlar yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə : Azərbaycan mühacirətinin siyasi tarixi: 1920-1945 / G. Mamulia, R. Abutalıbov ; rus dilindən tərc. A. Əliyev ; elmi red. A. Balayev.- Bakı : Teas Press, 2015.- 464 s.

15. **Mehdiyev, Ramiz Ənvər oğlu.** Yeni siyasət: inkişafa doğru : məcmuə / R. Ə. Mehdiyev ; tərt. B. Y. Sadıqov.
**I cild**. - Bakı : Azərbaycan qəzeti, 2008. - 581 s. - (Azərbaycanın özü qədər əbədi. IV kitab).

16. **Mərdanov, Misir Cumayıl oğlu**. Azərbaycan təhsil tarixi / M. C. Mərdanov. IV cild : Müstəqillik illərində ali təhsil / elmi red. F. Qədirov ; red.: G. Ə. Mehdiyeva, L. İmaməliyeva. - Bakı : Təhsil, 2012. - 912 s.

17. **Milli müstəqilliyimizin** yetirməsi - 20 : 1992-2012 / Tələbə Qəbulu üzrə Dövlət Komissiyası. - Bakı : Şərq-Qərb, 2012. - 272 s.

**18. Müasir Azərbaycan** : dövrün baxışında / bur. məsul B. Y. Sadıqov. I cild. - Bakı : OSKAR NPM, 2011. - 528 s.

19. **Müasir Azərbaycan ədəbiyyatı** : 2 cilddə: dərslik / C. Abdullayev [et al.] ; Bakı Dövlət Universiteti
**II cild** / elmi red.: C. Abdullayev, T. Hüseynoğlu, V. S. Sultanlı. - Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri. - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2007. - 564 s.

20. **Müstəqillik illərində Azərbaycan** Milli Elmlər Akademiyasının elmi nəşrləri : annotasiyalı biblioqrafik göstərici / AMEA Mərkəzi Elmi Kitabxana ; tərt., müəl. A. İ. Əliyeva-Kəngərli, elmi red. A. Həşimov. - Baku : Elm, 2012. - 824 s.

21. **Müstəqilliyə gedən yol:** Azərbaycan Xalq Cümhuriyyəti : 1918-2009: biblio-qrafik göstərici / AMEA Mərkəzi Elmi Kitabxana ; tərt., müəl. G. T. Əliyeva-Kəngərli, elmi red. Y. M. Mahmudov. - Bakı : Elm, 2010. - 424 s.

22. **Müstəqilliyin 25 ili:** azərbaycançılıq ideyası və dil siyasəti / Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Türk Dünyası İnfo" İB ; tərt., layihənin rəh. D. O. Osmanlı ; red.: Ş. Əliyev, Ə. Qoşalı, İ. İlyaslı ; ön sözün müəl. N. Q. Cəfərov. - Bakı : Qaya nəşriyyat MMC, 2016. - 224 s.

23. **Namazov, Qara Mustafa oğlu.** Azərbaycan uşaq ədəbiyyatı : dərslik / Q. M. Namazov ; elmi red. T. Ə. Əhmədov ; Bakı Dövlət Universiteti. - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2007. - 444 s.

24. **Piriyev, İftixar Fərhad oğlu.** Müstəqillik dövrü teatrımızın inkişafında Elçin dramaturgiyasının mövqeyi : monoqrafiya / İ. F. Piriyev ; elmi red. M. Əlizadə. - Bakı : Apostroff, 2013. - 228 s.

25. **Şükürov, Ağayar Məhəmməd oğlu**. **Müstəqil** dövrün fəlsəfəsi və filosofları / A. M. Şükürov ; elmi red. Ə. M. Tağıyev. - Bakı : Səda, 2007. - 396 s.

## Dövri mətbuatda

26. **Məmmədyarov, Elmar**. 25 illik müstəqillik dövrünə baxış və xarici siyasətimizin çağdaş prioritetləri / E. Məmmədyarov // Respublika. - 2016.- 20 oktyabr. - № 231. - S. 11.

27. **Tahirov, Kərim**. Azərbaycan mədəniyyəti müstəqillik yollarında / K. Tahirov // Xalq qəzeti. - 2016.- 19 oktyabr. - № 230. - S. 4.

28. **İsmayılqızı, Xuraman**. Müstəqillik hər bir xalqın ən böyük neməti, varlığının təsdiqidir / X. İsmayılqızı // İki sahil. - 2016.- 18 oktyabr. - № 190. - S. 5. - 18 oktyabr Azərbaycanın dövlət müstəqiliyi günüdür.

29. **Prezident İlham Əliyev:** Biz düzgün yoldayıq. Bu yol inkişaf yoludur, müstəqillik yoludur : Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbul təşkil edilib // Yeni Azərbaycan. - 2016.- 18 oktyabr. - № 190. - S. 2.

30. **Mirələmov, Hüseynbala**. İstaqlalımızın bayraqdarı / H. Mirələmov // Azərbaycan.- 2016.- 14 oktyabr.- № 226.- S.1,4.

31. **Nizami və Qaradağ** rayon gəncləri Müstəqillik Gününü qeyd ediblər // İki sahil. - 2016.- 14 oktyabr. - № 188. - S. 6. - Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü.

32. **Cəbiyev, Qafar**. Xaçmaz: müstəqillik illərinin uğurları / Q. Cəbiyev // Xalq qəzeti.- 2016.- 13 oktyabr.- № 225.- S. 6.

33. **Ələddinqızı , Nəzakət**. Azərbaycanın 25 illik müstəqillik tarixi / N. Ələddinqızı // Səs. - 2016.- 13 oktyabr. - № 187. - S. 4.

34. **Hacalıyev, Elnur**. **Müstəqillik** milli sərvətimizdir : Azərbaycan ötən 25 il ərzində misilsiz inkişaf yolu keçib / E. Hacalıyev // Azərbaycan.- 2016.- 13 oktyabr.- № 225.- S. 1.

35. **Qurbanqızı, Zümrüd**. **Müstəqillik** dövründə Azərbaycanda dil siyasəti / Z. Qurbanqızı // Respublika. - 2016.- 13 oktyabr. - № 225. - S. 5. - Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü.

36. **Sadıqov, Bəxtiyar**. Öz yolu ilə gedən Azərbaycan / B. Sadıqov // Azərbaycan. - 2016.- 12 oktyabr. - № 224. - S. 3.

37. **Bəylərli, Türkanə**. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında / T. Bəylərli // İki sahil. - 2016.- 11 oktyabr. - № 185. - S. 22.

38. **Novruz Məmmədov: "Azərbaycan** ötən 25 ildə uğurlu və şərəfli yol keçib" // Səs. - 2016.- 8 oktyabr. - № 184. - S. 5.

39. **Hacalıyev, Elnur**. Azərbaycanın taleyini yalnız xalq müəyyənləşdirir : Bu, müstəqilliyin ən böyük üstünlüyüdür / E. Hacalıyev // Azərbaycan. - 2016.- 6 oktyabr. - № 219. - S. 1,5.

40. **Həbibbəyli, İsa**. **Müstəqil** dövlətçiliyin geniş imkanlarına doğru : yeni Referendum Aktı dövlət müstəqilliyinin daha da möhkəmlənməsinə xidmət edir / İ. Həbibbəyli // Azərbaycan. - 2016.-8 sentyabr. - № 197. - S. 6. - 26 sentyabr ümumxalq səsverməsi (referendum) günüdür.

41. **Müstəqil Azərbaycanda dövlət** quruculuğu prosesi 1990-cı illərin əvvəllərində Naxçıvandan başlanıb // Azərbaycan. - 2016.- 3 sentyabr. - № 193. - S. 6.

42. **Ağammədov, H.** Müstəqilliyimiz dönməzdir, daimidir, əbədidir / H. Ağammədov // Palitra. - 2016.- 1 sentyabr. - № 155. - S. 7.

43. **Hacalıyev, Elnur**. **Müstəqil** dövlət olmaq müstəqil siyasət yürütmək deməkdir : bu mənada Azərbaycan dünya siyasi arenasında layiqli yerini tutub / E. Hacalıyev // Azərbaycan. - 2016.-29 avqust. - № 187. - S. 1,4.

44. **Abdullayev, Mübariz**. Azərbaycan müstəqil dövlətdir və müstəqil xarici siyasət həyata keçirir / M. Abdullayev // Yeni Azərbaycan. - 2016.-19 avqust. - № 150. - S. 2.

45. **Cəfərli, Rəşad**. 5 olimpiada, 26 medal : Azərbaycan müstəqil dövlət olaraq indiyədək yay olimpiya oyunlarında 5 dəfə iştirak edib / R. Cəfərli // Azərbaycan. - 2016.-6 avqust. - № 169. - S. 5. - XXXI Rio-de-Janeyro Yay Olimpiya Oyunları.

46. **Cabbarov, Elçin**. **Müstəqil** Azərbaycan Respublikasının Beynəlxalq terrorla mübarizəsi / E. Cabbarov // Respublika. - 2016.- 27 iyul. - № 160. - S. 6 ; Respublika. - 2016.- 28 iyul. - № 161. - S. 5 ; Respublika. - 2016.- 29 iyul. - № 162. - S. 3 ; Respublika. - 2016.-2 avqust. - № 165. - S. 3 ; Respublika. - 2016.-3 avqust. - № 166. - S. 6. - Azərbaycan Respublikasının 25 illiyi qarşısında.

47. **Hacalıyev, Elnur**. **Müstəqil** siyasət aparan ölkə : Azərbaycan Prezidentinin çoxsaylı xarici səfərləri beynəlxalq əlaqələri daha da möhkəmləndirib / E. Hacalıyev // Azərbaycan. - 2016.-2 avqust. - № 165. - S. 1-2. - Postneft mərhələsinə qədəm qoyan Azərbaycanın yeni dövr üçün əsas tələbi qarşıda duran məqsədlərin yüksək səviyyəli, çoxşaxəli olması, zamanın çağırışlarına cavab verməsi ilə bağlıdır.

48. **Pənahov, Füzuli**. **Müstəqil** məhkəmə-hüquq sisteminin formalaşdırılması ulu öndərin adı ilə bağlıdır / F. Pənahov // Respublika. - 2016.- 13 iyul. - № 148. - S. 5.

49. **Cəfərli, Rəşad**. Azərbaycanın maraqlarına xidmət edən müstəqil siyasət / R. Cəfərli // Azərbaycan. - 2016.-2 iyul. - № 141. - S. 1,5.

50. **Bədəlov, Əliqismət**. Azərbaycanın müstəqillik tarixində yeni siyasi eranın başlanğıcı : Milli Məclisin 1993-cü il 24 iyun tarixli iclasında prezident səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi barədə qərar xalqın iradəsinin təcəssümü idi / Ə. Bədəlov // Xalq qəzeti. - 2016.- 25 iyun. - № 136. - S. 3.

51. **Hacalıyev, Elnur**. Azərbaycan dünya bazarında rəqabət imkanını artırır : Prezident İlham Əliyev : "İqtisadi inkişaf bizim müstəqilliyimizin, hərbi gücümüzün və müstəqil xarici siyasətimizin təməlidir" / E. Hacalıyev // Azərbaycan. - 2016.-12 iyun. - № 126. - S. 1,3.

52. **Hacalıyev, Elnur**. Heç vaxt Azərbaycan indiki qədər güclü olmayıb : Prezident İlham Əliyev : "İqtisadi inkişaf bizim müstəqilliyimizin, hərbi gücümüzün və müstəqil xarici siyasətimizin təməlidir" / E. Hacalıyev // Azərbaycan. - 2016.- 1 iyun. - № 116. - S. 7.

53. **İsmayılqızı, Xuraman**. **Müstəqillik** tarixi nailiyyət, qürur mənbəyidir / X. İsmayılqızı // İki sahil. - 2016.-28 may. - № 96. - S. 11.

54. **Məhərrəmov, Abel**. **Müstəqil** Azərbaycanda elm və təhsilin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır / A. Məhərrəmov // Respublika. - 2016.- 8 may. - № 99. - S. 3.

55. **Vəliyev, Misirxan**. **Müstəqil** Azərbaycan ulu öndərin şah əsəridir / M. Vəliyev // İki sahil. - 2016.- 6 may. - № 81. - S. 11.

56. **Müstəqil Azərbaycan -** 25: multikulturalizmin və tolerantlığın bariz nümunəsi : Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, "Azərbaycan" qəzeti və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi konfrans // Azərbaycan. - 2016.-28 aprel. - № 90. - S. 12-13.

57. **Abdullayev, Mübariz**. Azərbaycan bütün istiqamətlərdə uğurlu inkişaf dinamikasını davam etdirir : Prezident İlham Əliyev: Bu gün Azərbaycan dünya miqyasında seçilmiş ölkələrdəndir, ləyaqətli ölkədir, müstəqil siyasət aparan ölkədir / M. Abdullayev // Yeni Azərbaycan. - 2016.- 30 mart. - № 54. - S. 2.

58. **Sadıqov, Bəxtiyar**. Azərbaycan dövlətinin təməl prinsipləri : İlham Əliyev : "Bütün dünyaya nümayiş etdiririk ki, Azərbaycan müstəqil ölkə kimi uğurla

yaşayır. Müstəqilliyin bütün üstünlükləri Azərbaycan xalqı üçün artıq bəllidir. Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq. Qısa müddətdə - müstəqillik dövründə Azərbaycan çox böyük və şərəfli yol keçib. Əgər biz müstəqilliyi 1991-ci ildə yox, 1971-ci ildə, yaxud 1950-ci illərdə qazansaydıq, bu gün Azərbaycan dünyada ən inkişaf etmiş ölkəyə çevrilərdi. Ancaq biz bu yolla gedirik. Ölkəmizi gücləndiririk, inkişaf etdiririk. Hər bir sahə üzrə konkret proqramlar var. Siyasi, iqtisadi islahatlar aparılır. Regional inkişaf proqramları icra edilir" / B. Sadıqov // Azərbaycan. - 2016.-30 mart. - № 65. - S. 1,3.

59. **Hacalıyev, Elnur**. Azərbaycan dünyada müstəqil dövlət kimi uğurlu siyasət aparır : Prezident İlham Əliyev : "Biz Azərbaycanda güclü, özünə güvənən, müstəqil dövlət qururuq" / E. Hacalıyev // Azərbaycan. - 2016.- 6 fevral.- № 27. - S. 1

60. **25 ilin 10** ili : **Müstəqillik** tariximizin son dekadası ölkəmizdə mədəniyyət və turizmin ahəngdar inkişafı ilə yadda qalıb // Mədəniyyət. - 2016.- 29 yanvar. - № 7/8. - S. 4.

61. **Azərbaycanın** müstəqil**liyi 2015-ci** ildə daha da möhkəmləndi : Prezident İlham Əliyev : "Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir" // Azərbaycan. - 2016.-7 yanvar. - № 2. - S. 1.

**Мамулия, Георгий**. История признания : к вопросу принятия де-факто государственной независимости Азербайджана на парижской мирной конференции / Г. Мамулия, Р. Абуталыбов // Каспiй. - 2016.-9 января. - № 4. - С. 14 ; Каспiй. - 2016.-16 января. **- № 9.** - С. 14 ; Каспiй. - 2016.-23 января. - № 13. - С. 11.

**İnternet saytlarında:**

www.xalqqazeti.com/az/news/ - UNEC-də konfrans: “Müstəqil Azərbaycan 25 ildə – iqtisadi baxış”

http://arqument.az/az/ - Müstəqil Azərbaycan: 25 ildə nə qazandıq, nə itirdik? - Siyasilər danışır

asoiu.edu.az/az/ - Müstəqil Azərbaycan: 25 illik misilsiz inkişaf yolu

www.moderator.az/news/ - Müstəqil Azərbaycan - 25 il

milliyol.az/news - Müstəqil Azərbaycan 25 yaşında

http://www.unikal.org/ - Müstəqil Azərbaycan 25 yaşında

http://ikisahil.az/ - “Müstəqil Azərbaycan 25 il”

fanat.az/xeber - Müstəqil Azərbaycan 25 yaşında

http://scwra.gov.az/Müstəqil Azərbaycan - 25: multikulturalizmin və tolerantlığın bariz nümunəsi

http://www.aztv.az/ - Əsrə bərabər 25 il: Azərbaycan müstəqillik yollarında inamla irəliləyir

http://www.1news.az/az/siyaset/ - Əli Həsənov: Azərbaycan 25 ildə özünü tam təmin edən bir dövlət olaraq formalaşıb və öz inkişafını uğurla davam etdirir

mct.gov.az/news-details?id=2831 - Azərbaycan Dövlət Müstəqilliyinin 25 illiyinə həsr olunmuş “Gəncliyin seçimi – müstəqillik” adlı sərgi keçirildi

http://www.bmm.az/news.php?id=40676 - “25 İLLİK MÜSTƏQİL AZƏRBAYCAN”

**Tərtibçi: İnformasiya-resurs şöbəsinin böyük kitabxanaçısı**
**Məmmədova Tamella**

**Ünvan:**

Az 1065, Yasamal rayonu, Bakı şəhəri N.Nərimanov küç., 203

E-mail: ryl.az@mail.ru

e-mail

URL: www.ryl.az

**Əlaqə telefonları:**

(+994 012) 538 02 47
538 54 57
538 93 54